## Kolumbiyanın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Qəbələdə səfərdə olmuşdur



Kolumbiyanın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Assad Jose Jater Pena tanışlıq məqsədilə fevralın 6-da Qəbələ rayonunda səfərdə olmuşdur.

Qonağı rayon icra hakimiyyətində RİH başçısının birinci müavini Abil Ağasəfov qəbul etmişdir. Görüş zamanı Assad Jose Jater Penaya rayon haqqında ətraflı məlumat verilmiş, Qəbələnin sürətli inkişafından söz açılmışdır. Bildirilmişdir ki, rayonda dünya standartlarına uyğun müasir turizm infrastrukturu yaradılmış, sənaye-istehsal müəssisələri, idman kompleksləri, beynəlxalq hava limanı, mədəniyyət və elmi araşdırmalar mərkəzləri, müalicə sanatoriya obyektləri, məktəb binaları tikilmiş, yeni yollar çəkilmiş, körpülər inşa edilmişdir. Artıq dünyanın mədəniyyət mərkəzlərindən biri kimi tanınmaqda olan Qəbələdə beynəlxalq görüşlərin, forumların, musiqi festivallarının, rəsm sərgilərinin, idman oyunlarının və sair tədbirlərin keçirildiyi qeyd olunmuşdur.

Söhbət zamanı çoxmillətli Qəbələdə dünyanın unikal tolerantlıq modelinin mövcudluğuna da diqqət çəkilmişdir.

Kolumbiyalı qonaq rayonun geniş potensialına və burada həyata keçirilən işlərə heyranlığını ifadə etmiş, Qəbələnin onun vətəninin hər hansı bir şəhəri ilə qardaşlaşması arzusunda olduğu barədə fikirlər səsləndirmişdir.

Görüşün yekununda qonağa xatirə hədiyyələri təqdim olunmuşdur.

Assad Jose Jater Pena rayonun tarix-mədəniyyət abidələri, turizm obyektləri və bir sıra istehsal müəssisələri ilə tanış olmuşdur.

**Foto S. Umuyevindir.**

# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## *Çıxışlar*

**Şahismayıl BAYRAMOV, 10 Saylı Ərazi Vergilər İdarəsinin rəisi.**



**Hörmətli toplantı iştirakçıları!**

Respublikanın iqtisadiyyatında əldə olunmuş uğurlarda Qəbələ rayonunun da payı vardır. Əldə olunmuş uğurlara rayon büdcəsinin artım tempi, iqtisadi inkişafın ayrı-ayrı istiqamətlər üzrə nail olunmuş nəticələr sübutdur.

Beləki, 10 saylı Ərazi Vergilər İdarəsi tərəfindən 2014-cü ilin proqnoz tapşırığına 100,4 faiz əməl olunaraq 18298,0 min manata qarşı 18367,6 min manat vəsait yığılmışdır. Rayon üzrə proqnoz tapşırığa 100,3 faiz əməl olunaraq 10202,0 min manata qarşı 10231,4 min manat vəsait yığılmışdır. Yeri gəlmişkən qeyd edim ki, 2015-ci ilin proqnozu daha gərgin müəyyən olunmuşdur ki, bu da bizdən nəzarət tədbirlərinin artırılmasını, keyfiyyətcə yenilənməsini tələb edir. Belə ki, cari ildə ərazi üzrə proqnoz 18,9 faiz (21747,0 min manat), Qəbələ rayonu üzrə 27,2 faiz (12974,0 min manat) artırılmışdır.

10 saylı Ərazi Vergilər İdarəsi müəyyən işlər görmüşdür. 2014-cü ildə vergi ödəyicilərinin məlumatlandırılması, maarifləndirilməsi istiqamətində il ərzində idarədə 5707 vergi ödəyicisi qəbul edilmiş, onlara 8988 adda xidmət göstərilmişdir. 279 vergi ödəyicisinin elektron imza alması təmin edilmiş, 3139 yazılı müraciət cavablandırılmış, 14 dəfə KİV-də çıxışlar edilmiş, 270 nəfərin iştirakı ilə 13 dəfə bələdiyyələrlə görüş keçirilmiş, 1490 vergi ödəyicisinə ünvanlı xidmət göstərilmişdir.

Nağdsız ödəniş vasitələrindən, o cümlədən Pos-terminallardan istifadənin əhəmiyyəti barədə 282 vergi ödəyicisinə səyyar məlumatlandırılma xidməti göstərilmiş, 140 vergi ödəyicisinin iştirakı ilə 3 seminar müşavirə keçirilmişdir.

2014-cü il ərzində Ərazi Vergilər İdarəsi tərəfindən nəzarət tədbirləri gücləndirilmiş, vergi qanunvericiliyinin tətbiqi və əməl olunması sahəsində müəyyən nəticələr əldə olunmuşdur. Beləki, 129 vergi ödəyicisində səyyar vergi yoxlaması keçirilmiş (əvvəlki ilə nisbətən 27 ədəd çox) 385,0 min manat əlavə vəsait hesablanaraq büdcəyə daxil edilmişdir. Operativ nəzarət tədbirləri nəticəsində 1987 akt və protokol tərtib edilərək (əvvəlki ildəkindən 487 çox) 354,2 min manat maliyyə sanksiyası tətbiq edilərək (əvvəlki ildəkindən 134,8 min manat çox) 97,2 faizinin, yəni 344,4 min manatının büdcəyə ödənilməsi təmin olunmuşdur.

Hazırda ərazi üzrə obyekti olan 2576 aktiv vergi ödəyicisi fəaliyyət göstərir. Onlardan 1208-i Qəbələ rayonundandır. Həmin obyektlərin 1972-i N.K.A ilə fəaliyyət göstərir. Qəbələ üzrə 911 vergi ödəyicisi, ərazi üzrə 2091 vergi ödəyicisinin obyektinə posterminal qoyulmuşdur ki, bunların 979-u Qəbələ rayonundadır. 2014-cü ilin dekabr ayında bütün pos-terminalların tranzaksiyası aparılmış və işlək vəziyyətdə olması təmin edilmişdir.

Toplantı iştirakçılarını əmin edirəm ki, möhtərəm Prezidentimizin 2014-cü ilin yekunlarına həsr olunmuş iclasda qeyd etdiyi tapşırıq və göstərişləri gündəlik işində rəhbər tutan kollektivimiz 2015-ci ildə də qarşıya qoyulmuş vəzifələrin icrası üçün bütün qüvvələrini səfərbər edəcəkdir.

**Arzu İSRƏFİLOVA, Çuxur Qəbələ bələdiyyəsinin sədri.**

**Hörmətli cənab başçı, qonaqlar və toplantı iştirakçıları!**

Artıq 15 ildir ki, ölkədə fəaliyyət göstərən bələdiyyələr, yerli özünüidarəetmə orqanı kimi uğurlu bir yol keçmişdir.

Bildiyiniz kimi hələ ulu öndərimiz Heydər Əliyevin ölkəyə ikinci dəfə rəhbərliyi dövründə yaranmış bələdiyyələrə dövlət dəstəyi bu gün də ölkə başçısı cənab İlham Əliyev tərəfindən ardıcıl olaraq davam etdirilir.

Bələdiyyələrin büdcəsinin formalaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində yerli özünüidarəetmə orqanlarına önəmli dəstək verilir.

2014-cü ilin dekabr ayında Azərbaycanda keçirilən bələdiyyə seçkiləri zamanı mən də Çuxur Qəbələ Bələdiyyəsinin üzvlüyünə namizədliyimi irəli sürmüşdüm. Seçki zamanı seçicilər mənim namizədliyimi də dəstəkləmişlər. Bələdiyyə üzvləri isə böyük etimad göstərərək məni bələdiyyə şurasının sədri seçmişdir.

Qeyd etməliyəm ki, 2010-2014-cü illərdə Çuxur Qəbələ Bələdiyyəsi xeyli nailiyyətlər əldə etmişdir. Respublikamızın bütün regionlarında olduğu kimi Qəbələ rayonunda həyata keçirilən sosial-iqtisadi inkişaf rayonun bütün yaşayış məntəqələrinin simasını dəyişdirmiş, qəsəbələrimizi, kəndlərimizi həqiqi mənasında tikinti meydanlarına çevirmişdir. Rayonda aparılan abadlıq-quruculuq işlərinin fonunda Çuxur Qəbələ kəndi də xeyli inkişaf etmiş, kəndin sosial obyektləri əsaslı təmir olunmuş, yeniləri inkişaf etmiş. kəndin sosial obyektləri əsaslı təmir olunmuş, yeniləri inşa edilmişdir.

2014-cü il sentyabrın 22-də möhtərəm cənab Prezidentimiz İlham Əliyev Qəbələ



rayonuna səfəri zamanı Çuxur Qəbələ kəndində də olmuş, Mirzəbəyli—Çuxur Qəbələ—Dizaxlı—Çarxana avtomobil yolunun və Qəbələ Arxeoloji Araşdırmaların Tədqiqatı Mərkəzinin açılışını etmişdir.

Ölkə başçısının Çuxur Qəbələyə gəlişi kənd sakinlərində qürur hissi doğurmuş və bütün bunlara görə kənd sakinlərinin adından və öz adımdan cənab Prezidentə dərin təşəkkürümü bildirirəm.

Yolun tikintisindən sonra kəndimizin ərazisindəki Qəbələ tarix-mədəniyyət qoruğuna turist axını çoxalmış, arxeoloji qazıntı işləri yeni vüsət almışdır. Hazırda tarix-mədəniyyət qoruğunda və elmi araşdırmalar mərkəzində 100-ə yaxın kənd sakini daimi və mövsümi işlərdə çalışır.

Son illər Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın xalqımızın milli mənəvi dəyərlərinin qorunması ilə bağlı gördüyü işlər, həmçinin qadın hüquqlarının qorunması və cəmiyyətdə, ictimai həyatda Azərbaycan qadınının rolunun artması sayəsində gördüyü işlər hamımızın üröyincədir.

Qadınlarımızın cəmiyyətdə ictimai fəallığının artırılması istiqamətində mən də bələdiyyə sədri kimi yeni iş yerlərinin açılması, həmçinin gənc qadınlarımızın işlə təmin olunması sahəsində layihələrin hazırlanması və həyata keçirilməsi sahəsində səylərimi artıracaq, qadınların ictimai işlərə cəlb olunması üçün tədbirlər görəcəyik.

**Kamal ƏFƏNDİYEV, "Aqrokompleks Qəbələ" MMC-də təsərrüfat rəhbəri.**

**Hörmətli başçı və toplantı iştirakçıları!**

Gilan holding "Aqro Kompleks Qəbələ" MMC Dövlət başçısının şəxsi tapşırığı ilə "Sahibkarlığın İnkişafına Yardım Fondunun" güzəştli krediti hesabına yaradılmışdır.

Dövlət başçısı cənab İlham Əliyevin 14 avqust 2013-cü il tarixində bu kompleksin açılış mərasimində iştirak etdiyi müddətdən kompleks tam fəaliyyətə başlamışdır. Təşkilatın əsas fəaliyyət istiqaməti ölkəni yüksək keyfiyyətli ət və süd məhsulları ilə təmin etməkdir. Kompleksdə heyvandarlıq bazasını Avstriya və Almaniya respublikalarından gətirilmiş "SİMMENTAL" cinsli yüksək keyfiyyətli ət və süd verən inək cinsi təşkil edir. Maldarlıqla yanaşı, kompleksdə yardımçı təsərrüfat olaraq daxili imkanlar hesabına qoyunçuluq təsərrüfatı və 20 hektardan artıq sahədə bağçılıq da inkişaf etdirilir.

(Ardı 5-ci səhifədə).